AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 6/21

Bakı şəhəri 19 aprel 2017-ci il

“AMEA Yüksək Texnologiyalar Parkı” MMC-nin nəzdində
İnnovasiya Fondunun yaradılması haqqında

Milli innovasiya sisteminin formalaşması və strukturunun optimallaşması, elm-innovasiya sahəsində dövlət maliyyələşdirilməsinin optimallaşması, fundamental tədqiqatların inkişafı, ölkədaxili biznes və elmin innovasiya əməkdaşlığının gücləndirilməsi, elm və innovasiya sahəsində böyük həcmli dövlət kapitalı və şəxsi kapitalın cəlb edilməsi, xarici kapitalın innovasiya sahəsinə cəlb edilməsi ilə özəl sektorun innovasiya aktivliyinin stimullaşması, elmi sektorun innovasiya təşəbbüsünün stimullaşması, beynəlxalq innovasiya şəbəkəsinə inteqrasiya, texnoloji ixtisaslaşma, daxili innovasiya şəbəkəsinin qurulması, regionların innovativ təşəbbüsünün stimullaşması, elm və təhsilin inteqrasiyası, innovasiya sahəsinə kiçik və orta biznesin cəlbi, yüksək texnologiya sahəsində prioritetləşmə məqsədi ilə “AMEA Yüksək Texnologiyalar Parkı” MMC-nin nəzdində İnnovasiya Fondunun yaradılması məqsədəuyğun hesab edilmişdir. Bununla əlaqədar olaraq Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. “AMEA Yüksək Texnologiyalar Parkı” MMC-nin nəzdində İnnovasiya Fondu yaradılsın (əlavə olunur).
2. Qərarın icrası “AMEA Yüksək Texnologiyalar Parkı” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Vüqar Babayevə tapşırılsın.
3. Qərarın icrasına nəzarət AMEA İşlər idarəsinin müdiri, siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
RƏYASƏT HEYƏTİ
PROTOKOL ŞÖBƏSİ
MƏRKƏZİ APARAT